10 oktyabr / 2020

Ədəbiyyat QƏZETİ



Şövkət Zərin HOROVLU

# Bu gün

*27 il Cəbrayılın işğal gününə qəmli şeirlər yazmışam. İndi zəfər günü şeir yazmaq mənə nəsib olub. Bu da Tanrı qismətidir.*

***Dolanma, ey bulud, əsmə, ey külək,***
***Mavi rəngə çalır min arzu-dilək.***
***Sevincdən köksümə sığışmır ürək,***
***Təzə tarix yazır ordumuz bu gün.***

***Yenə at üstədir Şahoğlu Şahım,***
***Qılıncla yuyulur köhnə günahım.***
***Özümə qayıdır nurlu sabahım***
***Təzə tarix yazır ordumuz bu gün.***

***Ali Baş Komandan vuran qolumuz,***
***Amalımız bəlli, haqdır yolumuz.***
***Onunla öyünür Odlar yurdumuz,***
***Təzə tarix yazır ordumuz bu gün.***

***Cərgə-cərgə gedir gizir, qazilər,***
***Gedir Mübarizlər, Mehdi, Həzilər.***
***Dünyanı heyrətə gətirir hünər***
***Təzə tarix yazır ordumuz bu gün.***

***Zəfər sözü dildə göyə ucalır,***
***Haqq nahaqdan görün necə bac alır.***
***Özünə gələndə türk böyük olur***
***Təzə tarix yazır ordumuz bu gün.***

***Gəl biz də bu qəmi ataq, qələmim,***
***"Ələmdən-nəşəyə" çataq, qələmim.***
***Sevgidən, şeirdən doğulsun şeirim,***
***Təzə tarix yazır ordumuz bu gün.***

***Bir baxın, zirvədən duman çəkilir,***
***Qurbanı saz çalır, "Diri" sevinir.***
***Arazın gözündən nisgil silinir,***
***Təzə tarix yazır ordumuz bu gün.***

***Şəfəqlə yuyunur yaşıl dərələr,***
***Açır düyünləri bəndlər-bərələr.***
***Səsimə səs verin, ay bizim ellər,***
***Təzə tarix yazır ordumuz bu gün.***

***Bəxtim üzə gülüb, gəlib dövranım,***
***Od qızıyam coşub, qaynayır qanım!***
***Gözün aydın olsun, Azərbaycanım,***
***Təzə tarix yazır ordumuz bu gün.***

*4 oktyabr 2020*